Tədbirdə təhsil naziri Misir Mərdanov, ADPU-nun rektoru Yusif Məmmədov, universitetin professor-müəllim heyəti, Bakı Dövlət Universitetinin rektoru Abel Məhərrəmov, Milli Məclisin deputatları Bəxtiyar Əliyev, Nizami Cəfərov və digər tanınmış ziyalılar, elm xadimləri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan ADPU-nun rektoru Yusif Məmmədov yubilyarı təbrik edərək alimin həyat və fəaliyyətindən, Azərbaycanda psixologiya elminin inkişafına verdiyi töhfələrdən danışıb. Rektor bildirib ki, səmərəli elmi-pedaqoji fəaliyyəti ilə seçilən Ə.Əlizadə 1976-cı ildən bu günədək fasiləsiz olaraq universitetdə kafedra müdiri vəzifəsində çalışır.

Tədbirdə çıxış edən təhsil naziri Misir Mərdanov Ə.Əlizadənin Azərbaycan psixologiya elminə verdiyi töhvələrdən və elmin bu sahəsinin inkişafındakı xidmətlərindən söz açıb. Alimin Azərbaycan psixologiya elmini ləyaqətlə təmsil və təbliğ etdiyini bildirən nazir yubilyarın nəinki respublikamızda, eləcə də xarici ölkələrdə tanındığını nəzərə çatdırıb. Görkəmli alimin gənc nəslə örnək olan, yüksək mənəvi keyfiyyətlərə malik ziyalılarımızdan olduğunu vurğulayan Misir Mərdanov yubilyarı təbrik edərək ona gələcək həyat və fəaliyyətində uğurlar arzulayıb.

Tədbirdə digər çıxış edənlər də yubilyarı təbrik edərək ona elmi fəaliyyətində uğurlar diləyiblər.

Sonra Ə.Əlizadəyə universitetin Fəxri fərmanı və mükafat təqdim olunub.